www.amu.edu.az

# TƏBİB

Novruz Bayramınız mübarək!

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-05 (1831) 16 mart 2026-cı il



## Müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış

Rektor, professor Gəray Gəraybəyli: İdeoloji baxımdan yetkin vətəndaşın formalaşmasında ali məktəblərin rolu böyükdür

səh. 2

### Rektor xanım əməkdaşları 8 Mart münasibətilə təbrik edib

səh. 2

### Praktik əsaslı II Tələbə Forumu baş tutub

səh. 3

### Məktəblilər ATU-nun tədris mühiti ilə tanış olublar

səh. 3



### Tələbə festivalının iştirakçılarına sertifikatlar verilib

Müxtəlif mədəniyyətləri bir araya gətirən festival gələcəkdə daha geniş miqyasda təşkil olunacaq

səh. 2

### Tibb tarixinin səssiz qadın qəhrəmanları

*Yasmin Rüstəmova: Güclü qadın anlayışı yalnız səhnədə deyil, gecə növbələrində, əməliyyat otaqlarında, çətin qərar anlarında formalaşır*

səh. 3

### Müasir immunodiaqnostika: fərdiləşdirilmiş klinik qərarlara açılan pəncərə

*Afaq Xəlilova: Müalicənin effektivliyi artır, lazımsız dərman istifadəsi və yan təsirlər minimuma enir*

səh. 6



### Kursantlar hərbi hissə və hospitallarda praktik təcrübə keçir

Tibbi profilaktika kafedrası təkcə akademik biliklər aşılamır, həm də gənclərdə vətənpərvərlik ruhunu formalaşdırır

səh. 7



## Rektor xanım əməkdaşları 8 Mart münasibətilə təbrik edib

Rektor, professor Gəray Gəraybəyli 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə universitetimizin əməkdaşları olan xanımları təbrik edib.
Rektor çıxışında qadınların cəmiyyətin inkişafında mühüm rol oynadığını qeyd edərək, xüsusilə həkim qadınların insan sağlamlığının qorunması və səhiyyənin inkişafı istiqamətində göstərdikləri fədakar xidmətləri yüksək qiymətləndirib. O bildirib ki, ATU-nun elmi-pedaqoji və tibb sahəsində çalışan xanım əməkdaşları öz bilik və peşəkarlıqları ilə universitetin inkişafına mühüm töhfə verirlər.
Professor Gəray Gəraybəyli universitet kollektivindəki həmrəyliyin və birgə fəaliyyətin əldə olunan uğurların əsasını təşkil etdiyini vurğulayaraq, xanımlara möhkəm cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.



## Tələbə festivalının iştirakçılarına sertifikatlar verilib

**Müxtəlif mədəniyyətləri bir araya gətirən festival gələcəkdə daha geniş miqyasda təşkil olunacaq**

Ötən il noyabrın 28-də universitetimizdə keçirilmiş Mədəniyyətlərarası Tələbə Festivalında iştirak etmiş tələbələrə sertifikatlar təqdim olunub. Rektor, professor Gəray Gəraybəylinin iştirakı ilə keçirilən görüşdə İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri, dosent Aygün Babayeva çıxış edib.
O, universitet rəhbərliyinin beynəlxalq mühitin inkişafına xüsusi diqqət yetirdiyini vurğulayıb və bu istiqamətdə göstərilən dəstəyə görə rektor G.Gəraybəyliyə, eləcə də tədbirin təşkilində və keçirilməsində iştirak etmiş tələbələrə təşəkkürünü bildirib. A.Babayeva qeyd edib ki, festival yalnız müxtəlif mədəniyyətlərin təqdim olunduğu tədbir deyil, həm də tələbələr arasında qarşılıqlı anlaşma və dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edən mühüm platformadır. Təltifetmə mərasimində fakültə dekanları, Rezidentura və magistratura şöbəsinin müdiri, həmçinin rektorun müşaviri də iştirak ediblər. Görüş çərçivəsində festivalın iştirakçısı olan tələbələrə sertifikatlar verilib, sonda xatirə şəkilləri çəkdirilib.
Qeyd edək ki, universitetdə ilk dəfə təşkil olunan Mədəniyyətlərarası Tələbə Festivalı 23 ölkədən 222 tələbəni bir araya gətirib. Tədbir çərçivəsində müxtəlif ölkələrin mədəniyyətini əks etdirən stendlər, milli mətbəx və yaradıcılıq nümunələri təqdim olunub. Təşkilatçıların fikrincə, bu festivalla yeni bir ənənənin əsası qoyulub, gələcək illərdə daha geniş miqyasda davam etdiriləcək.

**4-8 mart 2026-cı il tarixlərində Avstriyanın Vyana şəhərində Avropa Radioloqlar Cəmiyyətinin illik konfransı keçirilib. Tədbirdə dünyanın müxtəlif ölkələrindən mütəxəssislər iştirak edərək müasir radiologiyanın aktual problemləri barədə müzakirələr aparıblar.**

## Əməkdaşlarımız Avstriyadan qayıdıb

Beynəlxalq konfransda universitetimizi Elmi işlər üzrə prorektor, Radiologiya kafedrasının müdiri, professor Məlahət Sultan və kafedranın dissertantı Gülər Qorçiyeva təmsil ediblər. Onlar poster təqdimatla çıxış edib, iştirakçılarla müasir radiologiyanın inkişafı, tətbiq sahələri və elmi nailiyyətlər barədə təcrübələri bölüşüblər.
Tədbir həm peşəkar əlaqələrin genişləndirilməsinə, həm də radiologiya sahəsində elmi biliklərin dərinləşdirilməsinə imkan yaradıb.



# Müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış

## Rektor, professor Gəray Gəraybəyli: İdeoloji baxımdan yetkin vətəndaşın formalaşmasında ali məktəblərin rolu böyükdür





**Martın 4-də Yeni Azərbaycan Partiyası və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə "Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış" mövzusunda tədbir keçirilib.**
Tədbirdən əvvəl universitetin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub, önünə əklil və gül dəstələri qoyulub. Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi ehtiramla yad edilib. Dövlət Himni səsləndirildikdən sonra giriş sözü ilə universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edib.
Rektor bildirib ki, hər bir ali təhsil müəssisəsinin fəaliyyətində təlim-tərbiyə işi əsas istiqamətlərdən biridir. Onun sözlərinə görə, Azərbaycan Tibb Universitetində də gənclərin yalnız peşəkar kadr kimi deyil, həm də sağlam dünyagörüşünə malik şəxsiyyət kimi formalaşmasına xüsusi önəm verilir: "Xalqımızın və dövlətimizin qarşısında daşıdığımız başlıca öhdəliklərdən biri yüksək peşəkar səviyyəyə malik həkim-mütəxəssislərin hazırlanmasıdır". Bu məsələni universitetin prioritet istiqaməti kimi dəyərləndirən rektor qeyd edib ki, ideoloji baxımdan yetkin vətəndaşın formalaşmasında ali məktəblərin rolu böyükdür: "Məhz buna görə fəaliyyətimizdə gənclərimizin tərbiyəsinə, dünyagörüşünün və vətəndaş mövqeyinin möhkəmləndirilməsinə geniş yer ayırırıq".
Onun sözlərinə görə, sürətlə dəyişən müasir dünyada gənclərin düzgün istiqamətdə formalaşması xüsusi əhəmiyyət daşıyır. Rektor vurğulayıb ki, regionda baş verən mürəkkəb proseslər fonunda Azərbaycan sabitlik və inkişaf nümunəsi kimi seçilir.
Professor G.Gəraybəyli diqqətə çatdırıb ki, mövcud sabitlik və rifah asan əldə olunmayıb: "Bu gün gənclər elə düşünə bilərlər ki, sabitlik həmişə belə olub. Halbuki bugünkü nailiyyətlər asan və qurbanlarsız qazanılmayıb".
Çıxışının sonunda rektor qeyd edib ki, Azərbaycanın uğurları hamı tərəfindən eyni qarşılanmır və müxtəlif təzyiq cəhdləri mövcuddur. "Bu cəhdlərin əsas hədəflərindən biri gənclərin dünyagörüşünə təsir göstərməkdir". Professor G.Gəraybəylinin sözlərinə görə, məhz buna görə gənclərin düzgün tərbiyəsi, sağlam ideoloji formalaşması və dövlət siyasətini obyektiv şəkildə dərk etməsi ali təhsil müəssisələrinin əsas vəzifələrindəndir: "Universitetimizdə aparılan təlim-tərbiyə işinin başlıca istiqaməti də bu məqsədlərə xidmət edir".
Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov isə bildirib



ki, Azərbaycan qısa tarixi müddətdə böyük və şərəfli inkişaf yolu keçib. Onun sözlərinə görə, bu yol zəngin olmaqla yanaşı, kifayət qədər mürəkkəb və məşəqqətli olub. SSRİ-nin dağılması dövründə ölkəyə qarşı ciddi təzyiqlərin göstərildiyini xatırladan natiq qeyd edib ki, həmin illərdə dövlətçiliyin taleyi təhlükə altına düşmüş, müxtəlif qüvvələr tərəfindən ölkənin parçalanmasına yönəlmiş cəhdlər edilmişdi. Belə mürəkkəb şəraitdə ölkəni böhrandan çıxara biləcək yeganə siyasi liderin Ulu Öndər Heydər Əliyev olduğunu deyən T.Budaqov, 91 ziyalının müraciətinə verilən müsbət cavabın və Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir tariximizdə dönüş nöqtəsinə çevrildiyini bildirib.
O, həmçinin qeyd edib ki, partiyanın ilk dayaq təşkilatlarından biri məhz Azərbaycan Tibb Universitetində təsis olunub və bu təşkilat ötən illər ərzində həm keyfiyyət tərkibi, həm də üzvlərinin sayı baxımından ölkənin qabaqcıl partiya qurumlarından birinə çevrilib.
Daha sonra Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, ATU-nun professoru Vaqif Şadlinski qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. O bildirib ki, artıq altıncı ildir Novruzun azad torpaqlarımızda qeyd olunması xalqımız üçün xüsusi qürur mənbəyidir. Professor ali təhsil müəssisələrinin əsas missiyasının sağlam düşüncəli, vətənpərvər və cəsarətli gənclər yetişdirmək olduğunu vurğulayıb. Ömrünün 60 ildən çoxunu bağladığı Azərbaycan Tibb Universiteti ilə bağlı xatirələrini bölüşən V.Şadlinski, sovet dövründə universitetin maddi-texniki bazasının zəif olduğunu, klinika və tədris binalarının məhdud şəraitdə fəaliyyət göstərdiyini xatırladıb. Onun sözlərinə görə, son onilliklərdə universitetin infrastrukturu əsaslı şəkildə yenilənib, müasir tədris korpusları və yataqxanalar inşa olunub, ölkədə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb.
Professor çıxışının sonunda gənclərə universitetin zəngin ənənələrini davam etdirməyi, vətənə layiqli mütəxəssis kimi xidmət göstərməyi tövsiyə edib.
Tədbirdə YAP-ın yeni üzvlərindən I Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Azərin Şükürlü də çıxış edib. Partiya sıralarına yeni qoşulan 150 gəncdən biri kimi burada çıxış etməyin həyatında unudulmaz an olduğunu vurğulayan tələbə qeyd edib ki, universitetə qəbulunu yalnız şəxsi uğur deyil, dövlətin gənclərə göstərdiyi diqqət və qayğının nəticəsi kimi qiymətləndirir. A.Şükürlü deyib ki, Yeni Azərbaycan Partiyası gənclər üçün geniş imkanlar platformasıdır və onun sıralarına qəbul olunan 150 gənc yeni ideyalar və ümidlər deməkdir. Tələbə çıxışını "Yaşasın güclü Azərbaycan!" sözləri ilə yekunlaşdırıb.
Sonra Tahir Budaqov Prezident İlham Əliyevin 19 sentyabr 2025-ci il tarixli, 730 saylı Sərəncamına əsasən 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunmuş universitetin professoru Rafiq Məmmədhəsənova ordeni təqdim edib.
Ardınca partiyaya yeni qəbul olunmuş bir qrup tələbəyə üzvlük vəsiqələri verilib.
Partiyanın himninin səsləndirilməsi ilə rəsmi hissə başa çatıb. Tədbir bədii hissə ilə davam edib və sonda xatirə şəkli çəkdirilib.



# “Hibrid dünyada uşaq olmaq” adı altında beynəlxalq konqres keçirilib

**Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə təşkilatçılığı ilə “Pediatriyada elmi irs və innovasiyalar: Hibrid dünyada uşaq olmaq” adı altında pediatriya sahəsində görkəmli alimlərin yubileyinə həsr olunmuş beynəlxalq konqres keçirilib.**

Rəsmi açılış hissəsində Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramiq Quliyev, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, ATU-nun prorektoru, professor Məlahət Sultan, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov və başqaları çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycanda pediatriya sahəsinin sistemli və dayanıqlı inkişafının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun rəhbərliyi dövründə səhiyyə sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib, səhiyyə infrastrukturunun möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin yaradılması və mövcud xəstəxanaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Bu siyasət nəticəsində xüsusilə ana və uşaq sağlamlığının qorunması sahəsində mühüm nailiyyətlər əldə olunub, pediatriya xidmətinin inkişafı üçün möhkəm təməl formalaşıb.

Bildirilib ki, bu strateji xətt hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən ardıcıl islahatlar pediatriya sahəsinin daha da inkişafına, uşaqların sağlam gələcəyinin təmin olunmasına xidmət edir.

Professorlar Ənvər Həsənoğlu, Özgür Kasapçopur və Nailə Sultanovanın moderatorluğu ilə başlayan plenar sessiyada professor Rauf Bəylərov “Pediatriya: Tarix, irs və gələcəyə baxış”, Atlas Universiteti Tibb fakültəsinin dekanı, professor Metin Çetinkaya “Gələcəyin pediatrı – 2035 baxışı: Rəqəmsal, Genetik və Sosial çağırışlar”, akademik Aleksandr Qorelov “Respirator virus infeksiyalarının müalicəsində aktual tövsiyələr” və Əməkdar elm xadimi, professor Lalə Allahverdiyeva “Pediatriyada azalmayan problem: Xroniki öskürək – yeni alqoritmlər və rəqəmsal tətbiqlər” mövzusunda məruzələr oxuyublar.

Daha sonra konqres öz işini seksiyalarda davam etdirib. Bu seksiyalar akademik, Əməkdar elm xadimi Adilə Əvəz qızı Namazovanın 100, professor Amaliya Abdulla qızı Əyyubovanın 90, professor Surxay Novruz oğlu Musayevin 75, Əməkdar elm xadimi, professor Nəsib Cəfər oğlu Quliyevin 75 və professor Səfixan Şamil oğlu Həsənovun 70 illik yubileylərinə həsr olunub.

Qeyd edək ki, tədbirin Azərbaycan tibb elminin görkəmli nümayəndələrindən biri - Əməkdar həkim, tibb elmləri doktoru, professor Nəsibə Ağaismayıl qızı Hüseynovanın 100 illik yubileyinə həsr olunmuş ikinci günü Dövlət Gömrük Komitəsinin Mərkəzi Hospitalında keçirilib.

Konqres Səhiyyə Nazirliyinin “Davamlı tibbi təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları” əsasında akkreditasiya olunaraq 10 DTT balı ilə qiymətləndirilib.

**Azərbaycan Kardiologiya Cəmiyyətinin təşəbbüsü və Azərbaycan Tibb Universitetinin dəstəyi ilə “Qadın Ürəyi - Sağlam Həyat. Azərbaycan Tibbinin Güclü Qadınları” adlı tədbir keçirilib.**






# Tibb tarixinin səssiz qadın qəhrəmanları

Yasmin Rüstəmova: Güclü qadın anlayışı yalnız səhnədə deyil, gecə növbələrində, əməliyyat otaqlarında, çətin qərar anlarında formalaşır

Tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Azərbaycan Kardiologiya Cəmiyyətinin (AKC) sədri, tibb elmləri doktoru Yasmin Rüstəmova iştirakçıları salamlayaraq bildirib ki, tədbir 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində təşkil olunmaqla xüsusi məna daşıyır. Onun sözlərinə görə, Azərbaycan tibb tarixində qadınlar bəzən səssiz şəkildə fəaliyyət göstərsələr də, elmə və səhiyyəyə böyük töhfələr veriblər.

Y.Rüstəmova qeyd edib ki, AKC-nin ilk qadın sədri olmaq onun üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Güclü qadın anlayışı yalnız səhnədə deyil, gecə növbələrində, əməliyyat otaqlarında, çətin qərar anlarında formalaşır. O, tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürünü bildirib.

Daha sonra Azərbaycan tibbinin təməlini qoymuş, artıq aramızda olmayan xanım həkimlərin xatirəsinə həsr olunmuş videoçarx izlənilib.

Y.Rüstəmova qeyd edib ki, həmin qadınlar çətin dövrlərdə yaşasalar da, məktəb yaradıblar, tələbələr yetişdiriblər və səhiyyə sisteminin formalaşmasında mühüm rol oynayıblar.

Tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səhiyyə sahəsində gördüyü işlər də xüsusi vurğulanıb. Bildirilib ki, onun təşəbbüsü ilə ölkədə yeni klinikalar və xəstəxanalar açılıb, regionlarda səhiyyə infrastrukturu genişləndirilib, Heydər Əliyev Fondunun dəstəyi ilə talassemiya və digər mürəkkəb xroniki xəstəliklərlə mübarizə proqramları həyata keçirilib. Bu fəaliyyətin akademik Zərifə xanım Əliyevanın qoyduğu humanist və elmi ənənənin davamı olduğu diqqətə çatdırılıb. Həmçinin videoçarxda haqqında danışılan görkəmli xanım həkimlərin övlad və nəvələrinin bu günkü tədbirdə iştirak etməsi xüsusi vurğulanıb. Qeyd edilib ki, güclü qadınlar yalnız minlərlə tələbəyə deyil, öz ailələrinə də böyük ilham mənbəyi olublar.

Tədbirin gedişində Azərbaycan kardiologiyası və terapiyası sahəsində tanınmış xanım həkimlər Azərbaycan Kardiologiya Cəmiyyəti adından təltif olunublar. Sədr bildirib ki, bu təltif sadəcə plaket deyil, xidmətlərin layiqli tanınması, təşəkkür və hörmət ifadəsidir.

Mükafatlandırılan həkimlər öz ürək sözlərini bölüşərək təşəkkürlərini bildiriblər.

Tədbir çərçivəsində iki sessiya təşkil olunub. Birinci sessiyaya kardioloqlar Gülanə Ağayeva və Şəfa Şahbazova moderatorluq ediblər. Həkim Aysel İslamlı “Qadın ürəyi niyə fərqlidir və niyə gec diaqnoz qoyulur?”, ginekoloq, uzman həkim Rəxşəndə Aslanova isə “Hormonlar, menstrual dövr və ürək sağlamlığı” və “Yaşlanmamaq üçün nə edək?” mövzularına toxunub.

İkinci sessiyayanın moderatoru Xatirə Abduləlimova və Şahanə Ələsgərli olub. Sessiyada dermatoloq, tibb üzrə fəlsəfə doktoru Günay Fərəcova “Yaşlanmamaq üçün nə edək, nələrə diqqət etməliyik?” və “İfrata varmamaq yolları”, nutrisioloq Tutu Zeynalova “Kifayət qədər gücüm olsun deyə necə qidalanmalıyam?” və “1 gün - 1 qadın üçün ideal menyu”, psixiatr Gülay Məmmədzadə isə “Qadın cəmiyyətdə, ailədə və peşəkar həyatda: balansı necə saxlayaq?” və “Stressin azaldılması yolları” mövzularında çıxış ediblər.

Daha sonra Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, ETKİ-nin direktoru, professor Gülnaz Dadaşova, “Məlhəm” Beynəlxalq Hospitalının direktoru Sevda Əlizadə və “PAŞA Həyat” İdarə Heyətinin sədri Ülviyyə Cabbarova çıxış edərək tədbirin əhəmiyyətini vurğulayıb və təşəkkürlərini bildiriblər.

Sonda Cəmiyyətin nümayəndəsi tərəfindən Yasmin Rüstəmovaya plaket təqdim olunub.

# Məktəblilər ATU-nun tədris mühiti ilə tanış olublar



Azərbaycan Tibb Universitetində (ATU) gənclərin gələcək ixtisas seçiminə dəstək məqsədilə növbəti maarifləndirici görüş keçirilib.

Milli Məclisin deputatı Nigar Məmmədovanın təşəbbüsü və təşkilatçılığı ilə Abşeron rayonunun Qobu və Güzdək qəsəbələrində yerləşən məktəblərin şagirdləri universitetin tədris mühiti ilə əyani tanış olublar.

Səfərin məqsədi məktəblilərin ali təhsil mühiti haqqında məlumatlandırılması, onlarda tibb sahəsinə marağın artırılması və gələcək peşə seçimində düzgün istiqamətləndirilmələrinə dəstək göstərmək olub.

Tanışlıq çərçivəsində şagirdlər universitetin tədris korpuslarını, laboratoriyaların və muzeyini ziyarət ediblər. Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli və universitetin digər əməkdaşları onlara ATU-da tədris olunan ixtisaslar, təhsil prosesi, tələbə həyatı və universitetin beynəlxalq əməkdaşlıq imkanları barədə ətraflı məlumat veriblər. Eyni zamanda müasir tibbin inkişaf istiqamətləri, innovativ yanaşmalar, rezidentura mərhələsi və tibb sahəsində gələcək karyera perspektivlərinə dair təqdimatlar keçirilib.

Belə maarifləndirici görüşlərin təşkili məktəblilərin dünyagörüşünün genişlənməsinə, ali təhsil mühiti ilə yaxından tanış olmalarına və gələcək peşə seçimlərini daha düzgün müəyyənləşdirmələrinə mühüm töhfə verir.

# Stomatologiya fakültəsinin rəhbərliyi tələbələrlə görüşüb



Yeni semestrin başlanması ilə əlaqədar Stomatologiya fakültəsində tələbələrlə görüş təşkil olunub.

Görüşdə çıxış edən fakültənin dekanı, dosent Elmira Əliyeva tələbələrə uğurlar arzulayıb.

O, Stomatoloji Klinikanın nəzdində fəaliyyət göstərən Tədris mərkəzinə yeni avadanlıqların gətirildiyini diqqətə çatdıraraq, bunun tələbələrin praktik bilik və bacarıqlarının artırılmasına mühüm töhfə verəcəyini bildirib. Dekan tələbələrin nizam-intizam qaydalarına daim riayət etməsinin vacibliyini də vurğulayıb, hər hansı çətinlik yarandığı halda fakültə rəhbərliyinə müraciət etmələrini deyib.

Görüş zamanı V kurs tələbələrinin imtahanları və istehsalat təcrübəsi məsələləri də müzakirə olunub.

Bu il məzun olacaq tələbələr təcrübə proqramı ilə bağlı fikirlərini bölüşərək yaradılan şəraitdən məmnun olduqlarını ifadə ediblər.

# Praktik əsaslı II Tələbə Forumu keçirilib

**Tibb və sağlamlıq elmləri təhsili kafedrasında “Böhranlı vəziyyətlər zamanı ilk yardımın xüsusiyyətləri” adlı II Tələbə Forumu keçirilib. “Həyatın ritmi: elektrikin iki üzü” mövzusuna həsr olunmuş tədbir II Müalicə-profilaktika fakültəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tibb və sağlamlıq elmləri təhsili və Təcili tibb kafedralarının birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə 80 tələbə iştirak edib.**

Açılış mərasimində kafedra müdiri, dosent Samir Cavadlı, THİK-in sədri, assistent Qoşqar İsmayılov və fakültə dekanının müavini, baş müəllim Bənövşə Hüseynova çıxış edərək forumun silsilə xarakteri daşıdığını, mövzuların tələbələrin maraq və təklifləri nəzərə alınmaqla seçildiyini bildiriblər. Bu format tələbə təşəbbüslərinin dəstəklənməsi baxımından əhəmiyyətlidir.

Forumun birinci hissəsində Təcili tibb kafedrasının müəllimləri aktual mövzularla çıxış ediblər. Assistent Xatirə Şirinova-Safarova “Elektrik zədələnmələri niyə öldürür?”, assistent Fəxriyyə Quliyeva “Elektrik zədələnmələri zamanı nə etməli?”, dosent Şəhla Qasımova “Elektriklə müalicə nə zaman aparılmalıdır?” və assistent Nigar Cəfərova “Həyat qurtaran elektrik: AED və defibrilyator” mövzularında məruzə edərək öz təcrübələrini bölüşüblər.

Hər məruzədən sonra interaktiv “Kahoot” viktorinası keçirilib, qalib tələbələr kitab və diploma mükafatlandırılıb. Bu yanaşma tələbələrin nəzəri biliklərinin möhkəmləndirilməsinə və fəallığının artırılmasına xidmət edib.

Forumun ikinci hissəsi praktik təlim formatında təşkil olunub. Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əməkdaşları – baş müəllimlər Aydan Qədimli, Samirə Məmmədova, Bənövşə Hüseynova və assistent Günay Seyidova tərəfindən ilkin tibbi yardım və AED tətbiqi üzrə praktik bacarıqlar nümayiş etdirilib. Daha sonra tələbələr bu bacarıqları praktik şəkildə həyata keçiriblər.

Tədbirdə fövqəladə hallarda düzgün qərarvermə və operativ müdaxilə bacarıqlarının formalaşdırılmasının vacibliyi vurğulanıb. II Tələbə Forumu tələbəyönümlü və praktik əsaslı təhsil modelinin uğurlu nümunəsi kimi qiymətləndirilib.





## Nadir nevroloji xəstəliklər: paliativ yardım - sistemli tibbi dəstəyin əsası kimi

**Hər il dünyada Nadir Xəstəliklər Günü qeyd olunur. Bu gün nadir xəstəliklərlə yaşayan milyonlarla insanın problemlərinə diqqət çəkmək, erkən diaqnostika, müasir müalicə imkanları və sosial dəstəyin əhəmiyyətini vurğulamaq məqsədi daşıyır.**

Bu günün kontekstində adətən genetik diaqnostikanın inkişafı, molekulyar tibbin nailiyyətləri və gen terapiyası sahəsindəki yeniliklər ön plana çıxarılır. Lakin nadir nevroloji xəstəliklər zamanı əsas diqqət yalnız innovativ texnologiyalara deyil, həm də pasiyentin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilməlidir. Bu isə vaxtında və düzgün təşkil olunmuş paliativ yardımla birbaşa bağlıdır. Son illərdə nadir genetik xəstəliklər tibbin ən sürətlə inkişaf edən istiqamətlərindən birinə çevrilib. Yeni nəsil sekvensləmə (NGS), ekzom və genom analizləri diaqnostik imkanları genişləndirib və diaqnozun qoyulma müddətini əhəmiyyətli dərəcədə qısaldıb. Xüsusilə spinal əzələ atrofiyası (SƏA) və Düşenn əzələ distrofiyası (DƏD) kimi ağır irsi sinir-əzələ xəstəliklərinin müalicəsində hədəfli və gen terapiyası istiqamətində əldə olunan nailiyyətlər klinik praktikada yeni mərhələ açıb. Bu xəstəliklər artıq yalnız simptomatik yanaşma ilə deyil, patogenetik əsaslı müalicə perspektivi ilə qiymətləndirilir. Bununla belə, diaqnozun qoyulması ilə spesifik müalicənin başlanması arasında müəyyən zaman intervalı yarana bilər. Təsdiqləyici müayinələr, klinik göstərişlərin qiymətləndirilməsi, təşkilati prosedurlar və dərman təminatı məsələləri bu prosesi uzada bilər. Bu müddətdə həm SƏA, həm də DƏD kimi proqressiv xəstəliklərdə funksional geriləmə davam edə, respirator və ortopedik ağırlaşmalar dərinləşə bilər.

Məhz buna görə nadir nevroloji xəstəliklər zamanı paliativ yardım diaqnoz qoyulduğu andan etibarən kompleks tibbi yanaşmanın ayrılmaz hissəsi kimi təşkil olunmalıdır. İrsi nevroloji patologiyalarda, xüsusilə SƏA və DƏD zamanı paliativ yanaşma simptomların erkən mərhələdə idarə olunmasına, ağırlaşmaların profilaktikasına və ailənin dəstəklənməsinə yönəlir. Bu yanaşma ağrının və digər ağır simptomların nəzarətdə saxlanılmasını, tənəffüs pozğunluqlarının korreksiyasını, nutritiv dəstəyi, udma problemlərinin idarə olunmasını, kontrakturaların və ortopedik deformasiyaların profilaktikasını, kardioloji və respirator monitorinqi, eləcə də psixoloji və sosial dəstəyi əhatə edir. Paliativ yardım multidissiplinar komanda prinsipi əsasında qurulmalıdır. Nevroloq, tibbi genetik, reabilitoloq, pulmonoloq, kardioloq, dietoloq və psixoloqun koordinasiyalı fəaliyyəti pasiyentin funksional vəziyyətinin mümkün qədər uzun müddət qorunmasına və hospitalizasiya riskinin azalmasına imkan yaradır. Praktiki səhiyyə sistemi üçün əsas prioritetlərdən biri nadir xəstəlikləri olan pasiyentlər üçün effektiv marşrutlaşdırma mexanizmlərinin yaradılması, ixtisaslaşmış mütəxəssislərə çıxışın təmin olunması və ağır irsi nevroloji xəstəliklər, o cümlədən SƏA və DƏD üzrə milli paliativ yardım standartlarının hazırlanmasıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Uşaq Nevroloqları Assosiasiyası 2018-ci ildən etibarən bu nozologiyalar üzrə pasiyent reyestrinin formalaşdırılması və həmin uşaqlar üçün sistemli paliativ yardımın təşkili istiqamətində strateji plan üzərində iş aparır. Bu təşəbbüs həm klinik müşahidənin optimallaşdırılması, həm də uzunmüddətli tibbi və sosial dəstəyin koordinasiyası baxımından mühüm əhəmiyyət daşıyır. Nadir xəstəliklər səhiyyə sistemi üçün ciddi çağırışdır. Eyni zamanda bu sahə sistemin təşkilati yetkinliyini və humanist yanaşmanı nümayiş etdirmək üçün bir imkandır. Genetik tibbin nailiyyətləri ümid yaratsa da, pasiyentin real həyat keyfiyyətinin təmin edilməsində əsas amil davamlı və peşəkar paliativ dəstəkdir.

Ümumdünya Nadir Xəstəliklər Günü bir daha xatırladır ki, hər nadir diaqnozun arxasında uzunmüddətli tibbi müşahidə və sistemli dəstək tələb edən pasiyent və ailə dayanır. Paliativ yardım müalicənin son mərhələsi deyil, pasiyentin həyatının bütün mərhələlərində keyfiyyətli və ləyaqətli tibbi xidmətin əsasını təşkil edir.

**Aytən Məmmədbəyli**
*Nevrologiya kafedrasının müdiri, professor*

## Heç bir texnologiya həkim şəfqətini və mərhəmətini əvəz edə bilməz

**Lənkəran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və "Lasomedgroup"un dəstəyi ilə Azərbaycan Pediatrlar Assosiasiyasının "Milli Pediatriya Akademiyası-95 il" yubiley layihəsi çərçivəsində "Pediatriyada yeni yanaşmalar və praktiki həllər" mövzusunda növbəti regional konfransı keçirilib.**

Tədbiri giriş nitqi ilə açan APA sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə regionlarda həkimlərin peşəkar inkişafını hədəfləyən silsilə görüşlərin davamı kimi konfransın əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, belə tədbirlər paytaxtla bölgələr arasında elmi təcrübə mübadiləsini gücləndirmək və ən son tibbi innovasiyaların yerli pediatrların təcrübələrində tətbiqinə imkanlar yaratmaq məqsədi daşıyır.

Sonra T.Tağı-zadə "Ailə təbabətində pediatriya: süni intellekt və rəqəmsal səhiyyənin rolu" mövzusunda təqdimatla çıxış edib. Alim vurğulayıb ki, müasir dövrdə rəqəmsal həllər və süni intellekt uşaq xəstəliklərinin erkən diaqnostikasında və fərdi müalicə metodlarının seçilməsində inqilabi rol oynayır. Rəqəmsal səhiyyənin ailə təbabətinə inteqrasiyası pediatrların işini asanlaşdırmaqla yanaşı, tibbi xidmətin keyfiyyətini və əlçatanlığını da artırır. Amma texnologiya nə qədər sürətlə inkişaf etsə də, insan həyatı ilə bağlı son qərar süni intellektə deyil, məhz həkimin özünə məxsus olmalıdır. Çünki heç bir texnologiya həkim şəfqətini və mərhəmətini əvəz edə bilməz.

Konfransda çıxış edən millət vəkili, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı Rəşad Mahmudov müasir təbabətdə klinik protokolların tətbiqinin əhəmiyyətindən danışıb. Alim vurğulayıb ki, klinik protokollar müasir səhiyyə sisteminin əsas dayaqlarından biri olmaqla yanaşı, elmi sübutlara əsaslanan və klinik prosesləri standartlaşdıran strateji yol xəritəsi rolunu oynayır.




Tədbirdə R.Mahmudov dünyada ilk dəfə kiçikyaşlı uşaqda eyni vaxtda icra olunan 2 cərrahi əməliyyatın - ürək əməliyyatı və tanınmış cərrah-transplantoloq Mircəlal Kazımının apardığı qaraciyər transplantasiyası əməliyyatının gedişatına dair videogörüntüləri nümayiş etdirib.

Lənkəran ŞİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva çıxışında bildirib ki, dövlətin yüksək diqqəti nəticəsində şəhərin təhsil və səhiyyə infrastrukturu müasirləşir və bu proses xalqın gələcək rifahına xidmət edir.

Konfransda ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosentləri Ülviyyə Hacıyeva, Fəxriyyə Məmmədova və Lalə Hidayətova məruzələr oxuyublar.

Tədbirin II sessiyasında Milli Hematologiya və Transfuziologiya Mərkəzinin professoru Mireldar Babayev "İrsi hemolitik anemiyalar: Uşaqlarda klinik gedişi" mövzusunda çıxış edib.

"Azərbaycanda uşaqlar arasında respirator infeksiyaların klinik epidemioloji xüsusiyyətləri" adlı təqdimatında tibb üzrə fəlsəfə doktoru, dosent Səbinə Cəfərova ölkə daxilində yayılan respirator infeksiyaların dinamikasını və onların mövsümi xüsusiyyətlərini şərh edib.

Səhiyyə Nazirliyi tərəfindən 12 DTT balı ilə qiymətləndirilən konfransda 150-dən çox səhiyyə mütəxəssisi əyani və onlayn iştirak edib.

## Tələbələr elmi fəaliyyətin mərhələləri ilə bağlı məlumatlandırılıb



**Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Elmi araşdırmanın təqdim edilməsinin əsasları və strategiyaları" mövzusunda seminar keçirilib.**

Tədbirdə çıxış edən TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova universitet rəhbərliyinin tələbələrin elmi fəaliyyətinə xüsusi önəm verdiyini vurğulayıb və gənclərə bu istiqamətdə uğurlar arzulayaraq, seminarın məqsədinin tələbələrin elmi-tədqiqat bacarıqlarını inkişaf etdirmək, elmi işlərin hazırlanması və təqdim olunması ilə bağlı praktik bilikləri bölüşmək olduğunu bildirib.

Seminar çərçivəsində elmi işə başlama, tədqiqatın mərhələləri, ideyadan məqaləyə gedən yol, vizual təqdimatın əhəmiyyəti, elmi çıxış zamanı effektiv ünsiyyət və startap imkanları kimi mövzular üzrə təqdimatlar keçirilib. Nigar Babayeva, Rabit Arixov, Shayan Hashempour, Fatimə Cəfər, Aybəniz Həşimova, Ali Ghorbaniazar və Leyla Əhmədova müxtəlif mövzularda çıxış ediblər.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb və onlara sertifikatlar təqdim olunub.

## Terapevtik stomatologiya kafedrasında türkiyəli professorla görüş keçirilib

**Terapevtik stomatologiya kafedrasında Türkiyədən dəvət olunmuş tanınmış stomatoloq, professor Bülent Kurtişlə görüş keçirilib. Görüş ATU-nun Tədris Stomatoloji Klinikasında baş tutub.**

Tədbirdə çıxış edən fakültə dekanı, dosent Elmira Əliyeva belə görüşlərin tələbələr üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb. O, stomatologiya sahəsində beynəlxalq təcrübə mübadiləsinin vacibliyindən danışaraq, xarici praktikaların gənc mütəxəssislərin peşəkar inkişafına mühüm töhfə verdiyini qeyd edib.



Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov isə qonaq professorun Türkiyədə və beynəlxalq stomatologiya ictimaiyyətində tanınmış mütəxəssislərdən biri olduğunu bildirib. O, həmçinin ATU ilə Qazi Universiteti arasında mövcud olan əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, professor B.Kurtişin həyat yoldaşı, uşaq stomatoloqu Burçin Kurtiş də görüşdə iştirak edir.

Məlumat üçün bildirək ki, professor B.Kurtiş periodontologiya və implantologiya sahəsində ixtisaslaşmış mütəxəssisdir və uzun illərdir bu istiqamətdə elmi-praktik fəaliyyət göstərir. Görüş çərçivəsində o, tələbə və həkim-rezidentlər üçün mühazirə oxuyaraq stomatologiyada müasir müalicə üsulları və beynəlxalq təcrübə barədə məlumat verib. Professor, həmçinin iştirakçıların suallarını cavablandırıb və gələcək əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb.

# Orqan transplantasiyasına həsr olunmuş ənənəvi konfrans keçirilib

Professorlar Nuru Bayramov və Sezai Yılmazın təşkilatçılığı və sədrliyi ilə ənənəvi "XI Bakı-Malatya Orqan Transplantasiyası Günləri" beynəlxalq elmi-praktik konfransı baş tutub. Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən 7 DDT balı ilə akkreditasiya olunmuş tədbir transplantologiya sahəsində ABŞ, Türkiyə və Azərbaycan mütəxəssislərini virtual platformada bir araya gətirib.

Konfrans çərçivəsində tanınmış amerikalı mütəxəssis Brian Carr-ın hepatosellülyar karsinomada proqnostik faktorlar və serum biomarkerləri barədə məruzəsi dinlənilib. Türkiyədən Volkan İnce hepatosellülyar karsinomada transplantasiya sərhədlərinin genişləndirilməsi, Adil Başkıran transplantasiyadan sonra HBV residivi, Neslihan Çelik uşaqlarda qaraciyər transplantasiyasının çətinlikləri, Koray Kutlutürk isə qaraciyər transplantasiyasında hepatik arteriyanın rekonstruksiyası mövzusunda təqdimatla çıxış ediblər.

Azərbaycandan olan mütəxəssislər Mircəlal Kazımi, Tariyel Nadirov, Eldar Əhmədov, Rəşad Şolan və Anar Namazov qaraciyər və böyrək transplantasiyası sahəsində yerli mərkəzlərin təcrübələrini onlayn auditoriya ilə bölüşüblər. Ümumilikdə 432 iştirakçının qoşulduğu konfransda həkimlər, rezidentlər və səhiyyə nümayəndələri transplantologiya sahəsində son elmi yeniliklərlə tanış olmaq imkanı əldə ediblər.

Konfransın uğurla baş tutmasında töhfələrinə görə Azərbaycan Tibb Universitetinə, İnönü Universiteti Qaraciyər Nəqli İnstitutuna, çıxışçılara və təşkilat komandasına, o cümlədən Mustafa Kərəm, Aygün İbrahimova və Recai Tosuna xüsusi təşəkkür ifadə olunub. Tədbir Trans-Xəzər HPB Cərrahiyyə Assosiasiyası tərəfindən təşkil edilib.

# Tanınmış professor rezident və tələbələrimizə mühazirə oxuyub



**Martın 2-də I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı və Rezidentura və magistratura şöbəsinin dəstəyi ilə "Mən bunu necə edirəm?" layihəsi çərçivəsində universitetin rezidentləri və yuxarı kurs tələbələri üçün növbəti seminar keçirilib.**

Seminarı AMEA-nın müxbir üzvü, kafedranın müdiri, layihənin rəhbəri, professor Nuru Bayramov açıb. O bildirib ki, "Mən bunu necə edirəm?" layihəsi təcrübəli və qabaqcıl həkimlərin öz bilik və bacarıqlarını gənc həmkarları ilə bölüşməsi məqsədi daşıyır.

Professorun sözlərinə görə, layihə çərçivəsində ölkənin tanınmış mütəxəssisləri müxtəlif xəstəliklərin müalicəsi və cərrahi əməliyyatların icrası zamanı tətbiq etdikləri praktik yanaşmaları bölüşürlər: "İndiyədək onlarla bu cür mühazirə və vebinar təşkil olunub. Bugünkü tədbir sayca 32-cidir".

N.Bayramov qeyd edib ki, təşəbbüsün icrasında universitetin və Tədris Cərrahiyyə Klinikasının tədris bölməsi yaxından iştirak edir. O, layihənin kafedra üzrə əsas icraçılarından biri kimi tibb elmləri doktoru Elman Əzimovun fəaliyyətini də xüsusi vurğulayıb.

Professor bildirib ki, bugünkü seminarın məruzəçisi M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin professoru Qurbanxan Müslümovdur. O qeyd edib ki, yüksək səviyyəli mütəxəssislərin hər bir mühazirəsi ciddi hazırlıq və böyük zaman tələb edir: "Bu səviyyəli mütəxəssislər bir mühazirə və ya vebinar üçün həftələrlə hazırlaşır, iş qrafiklərindən əlavə vaxt ayırırlar. Mühazirəni təqdim etmək özü də kifayət qədər məsuliyyətli və çətin prosesdir".

Seminarın mövzusunun "Mən qida borusunu laparoskopik necə rezeksiya edirəm?" olduğunu diqqətə çatdıran N.Bayramov əlavə edib ki, Q.Müslümov ölkədə, xüsusilə laparoskopik cərrahiyyə sahəsində təlimlərin təşkilində öncül simalardan biridir və Azərbaycan cərrahiyyəsini beynəlxalq səviyyədə tanıdan mütəxəssislərdəndir.

Daha sonra professor Q.Müslümov praktikada rast gəlinən və icra olunmuş nadir əməliyyat nümunələrini videoformatda nümayiş etdirərək iştirakçılara ətraflı məlumat verib. O, klinik praktikada nadir anatomik xüsusiyyətlərin cərrah üçün nə dərəcədə əhəmiyyətli olduğunu xüsusi vurğulayıb və qida borusunun laparoskopik rezeksiyası texnikasından bəhs edib.

Q.Müslümov təqdimatında situs inversus totalis hallarına da toxunaraq bildirib ki, bu vəziyyətdə ürəkdən başlayaraq qarın boşluğuna qədər orqanlar normalın tam əks tərəfində yerləşir və belə cərrahi müdaxilələr praktikada xüsusi diqqət tələb edir.

Professor daha bir neçə nadir əməliyyatın icrasını da nümayiş etdirib. O deyib ki, laparoskopik cərrahiyyənin üstünlüklərindən biri cərrahi anatomiyanın böyüdülmüş və daha demonstrativ şəkildə izlənilməsinə imkan yaratmasıdır. Onun sözlərinə görə, bu texnologiya gənc cərrahların anatomiyanı daha dərindən qavramasına mühüm töhfə verir.

Məruzə iştirakçıların böyük marağına səbəb olub, seminar sualların cavablandırılması ilə başa çatıb.

**Ümumdünya Böyrək Günü 2006-cı ildən etibarən hər il mart ayının ikinci cümə axşamı qeyd olunur. Bu il həmin tarix martın 12-nə təsadüf edir. Əsas məqsəd böyrək xəstəliklərinin profilaktikası, erkən diaqnostikası və sağlam həyat tərzi barədə ictimaiyyəti məlumatlandırmaqdır.**



# 12 Mart - Ümumdünya Böyrək Günü idi

## Professor Aytən Məmmədzadə: Böyrək xəstəliklərinin əsas səbəbləri şəkərli diabet və yüksək arterial təzyiqdir

Bu haqda I Daxili xəstəliklər kafedrasının professoru, Tədris Terapevtik Klinikanın Nefrologiya şöbəsinin müdiri Aytən Məmmədzadədən açıqlama aldıq.

Professor bildirdi ki, Ümumdünya Böyrək Günü uzun illərdir qeyd olunur və hər il mart ayının ortalarında həm dünyada, həm də Azərbaycanda elmi-praktik konfranslarla keçirilir. Bu ənənəyə uyğun olaraq nefroloqlar və uroloqlar bir araya gələrək böyrək xəstəlikləri sahəsində yenilikləri müzakirə edirlər.

Bu il tədbirin Mərkəzi Urologiya Klinikasında keçirilməsi planlaşdırılır. Konfransda böyrək xəstəliklərinin diaqnostikası və müalicəsində son nailiyyətlər təqdim olunacaq. Bundan əlavə, aprel ayında böyrək sağlamlığına həsr olunmuş silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Transplantasiya, xroniki böyrək xəstəlikləri və digər aktual mövzular üzrə bir neçə konfransın keçirilməsi planlaşdırılır.

Professor vurğuladı ki, son illərdə böyrək xəstəliklərinin sayı həm dünyada, həm də Azərbaycanda artıb. Əsas səbəblər sırasında ilk yerdə şəkərli diabet və yüksək arterial təzyiq dayanır. Həmçinin irsi xəstəliklər, qohum nikahları, ağır respirator infeksiyalar və COVID-19 sonrası fəsadlar böyrək funksiyasına mənfi təsir göstərir: "Böyrək xəstəliklərinin çoxu ilkin mərhələdə simptomsuz keçir. Buna görə də heç bir şikayəti olmayan şəxslər də vaxtaşırı sidik analizi və digər laborator müayinələrdən keçməlidirlər. Erkən aşkarlanan xəstəliklərin müalicəsi daha effektiv olur və ağırlaşmaların qarşısını almaq mümkündür".

Mütəxəssis onu da qeyd etdi ki, son mərhələ böyrək çatışmazlığının ən çox rast gəlinən səbəbi şəkərli diabetdir. Dünyada olduğu kimi, Azərbaycanda da diabetik böyrək zədələnməsi birinci yerdədir. İkinci yeri isə arterial hipertenziya tutur. Daha sonra böyrəyin spesifik və irsi xəstəlikləri gəlir.

Şöbə müdiri böyrəklərin qorunması üçün tövsiyələrini də verdi. Bildirdi ki, sağlam qalmaq üçün gündəlik kifayət qədər su içmək, duz istifadəsini azaltmaq, balanslı qidalanmaq, aktiv həyat tərzi sürmək, artıq çəkidən uzaq olmaq və şəkərli diabet ilə yüksək təzyiqi nəzarətdə saxlamaq lazımdır: "Pasiyentlərdən tez-tez soruşduğumuz su miqdarı çox vaxt yetərli olmur. Su böyrək sağlamlığı üçün həyati vacibdir. Sadə profilaktik tədbirlər ağır mərhələli böyrək xəstəliklərinin qarşısını ala bilər. Əks halda, dializ və ya transplantasiya qaçılmaz olur".

A.Məmmədzadə, həmçinin xroniki böyrək xəstəliyinin beş mərhələdən ibarət olduğunu xatırlatdı. Sonuncu, beşinci mərhələdə böyrəklərin funksiyası 10-15% səviyyəsinə düşdükdə, xəstələrə hemodializ və ya digər böyrəkəvəzləyici terapiya tətbiq olunur.

Professor sonda qeyd etdi ki, böyrəkləri qorumaq bütün orqanizmin normal fəaliyyət göstərməsi üçün çox vacibdir: "Hər kəs həyat tərzini sadaladığım prinsiplərə uyğun qursa, böyrək xəstəliklərinin qarşısını almaq və ciddi ağırlaşmaları azaltmaq mümkündür".

**Qabil ABDULLAYEV**

# İctimai fənlər kafedrasında TEC-in konfransı baş tutub

**İctimai fənlər kafedrasında Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Tədbiri giriş nitqi ilə açan kafedra müdiri, professor Qoşqar Əliyev bildirib ki, konfransın əsas məqsədi aktual ictimai, siyasi və səhiyyə sahələrinə dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq, tələbələrin dünyagörüşünü genişləndirmək və onları elmi fəaliyyətə təşviq etməkdir.**

O qeyd edib ki, ali təhsil müəssisələrinin missiyası yalnız ixtisaslı mütəxəssis hazırlamaq deyil, həm də geniş dünyagörüşünə, analitik təfəkkürə və yüksək mənəvi keyfiyyətlərə malik şəxsiyyət formalaşdırmaqdır.

Professor vurğulayıb ki, müasir dövrdə elmin sürətli inkişafı tələbələrdən fəal mövqe, davamlı özünüinkişaf və elmi araşdırmalara maraq tələb edir. Həkim peşəsinin xüsusi məsuliyyət daşıdığını deyən natiq, bu sahədə uğur qazanmaq üçün nəzəri biliklərlə yanaşı, etik davranış, humanist yanaşma və xəstə ilə düzgün ünsiyyət bacarığının vacibliyini diqqətə çatdırıb.

Konfransın davamında məruzəçi tələbələrə söz verilib. Xanım Aslanlı "Azərbaycan Xalq Cümhuriyyəti – Şərqin demokratiya möcüzəsi", Asi Paşazadə "Multikulturalizm siyasətinin cəmiyyətin sosial sağlamlığına təsiri", Diana Guseinova "Qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdışı tarixi zərurətdir", Arzu Quliyeva "Azərbaycan səhiyyəsində aparılan son islahatların nəticələri" və Fatimə Qədirova "Tibbi antropologiya baxımından tarixi miqrasiya dalğalarının insan anatomiyasına təsiri" mövzularında çıxış ediblər.

Məruzələrdə Azərbaycanın tarixi inkişafı, dövlətçilik ənənələri, milli birliyin möhkəmlənməsi və müasir islahatların ölkənin davamlı tərəqqisindəki rolu vurğulanıb. Xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərləri, hüquqi dövlət quruculuğu, multikulturalizm siyasəti, səhiyyə





sisteminin modernləşdirilməsi, icbari tibbi sığortanın tətbiqi və rəqəmsal texnologiyaların sahəyə inteqrasiyası geniş təhlil olunub. Qeyd edilib ki, bu istiqamətlər üzrə həyata keçirilən tədbirlər cəmiyyətin sosial rifahının yüksəldilməsinə və tibbi xidmətlərin əlçatanlığının artırılmasına xidmət edir.

Tədbirdə çıxış edən Tələbə Elmi Cəmiyyətinin Əczaçılıq fakültəsi üzrə elmi rəhbəri Xuraman Mustafayeva elm və təhsilin gənclərin peşəkar inkişafındakı əhəmiyyətini qeyd edərək öz təkliflərini bölüşüb. O, tələbələrin ilk kurslardan elmi araşdırmalara cəlb olunmasının vacibliyini, multikulturalizm, etnofarmakologiya və milli tarix kimi mövzuların onların elmi təfəkkürünə müsbət təsirini vurğulayıb. Həmçinin tədqiqat işlərində praktik elementlərin, orijinal araşdırmaların və sorğu metodlarının tətbiqinin elmi nəticələrin keyfiyyətini artırdığı bildirilib.

Sonda konfransın moderatoru, İctimai fənlər kafedrasının müəllimi, tarixçi Aidə Təhməzova maraqlı məruzələrə görə tələbələrə təşəkkür edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Nitqin qavranılması eşitmə qabiliyyəti ilə birbaşa bağlıdır



**Martın 3-də Tədris Cərrahiyyə Klinikasında Beynəlxalq Qulaq və Eşitmə Sağlamlığı Günü ilə əlaqədar tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian açaraq bu beynəlxalq günün əhəmiyyətindən danışıb. Bildirib ki, məqsəd eşitmə itkisinin qarşısının alınması, qulaq sağlamlığının qorunması barədə məlumatlılığın artırılması və düzgün qulaq qulluğunu təşviq etməkdir.

Kafedranın assistenti Aynurə Sücəddinova “Eşitmənin sosial əhəmiyyəti və cəmiyyətdəki rolu” mövzusunda məruzə ilə çıxış edərək insan həyatında duyğu orqanlarının hər birinin mühüm yer tutduğunu diqqətə çatdırıb: “Eşitmə qabiliyyəti yalnız fizioloji funksiya deyil, həm də sosial münasibətlərin qurulmasında əsas vasitələrdən biridir. Eşitmə sayəsində insan nitqi qəbul edir, ünsiyyət qurur, bilik əldə edir, təhlükəni duyur və mədəniyyətlə əlaqə yaradır. Bu baxımdan eşitmə təkcə bioloji ehtiyac deyil, cəmiyyətin formalaşmasında və inkişafında mühüm rol oynayan sosial amildir. Əvvəla, eşitmə insanın ünsiyyət qurmasının əsas şərtlərindən biridir. Dil və nitq vasitəsilə insanlar düşüncələrini, hisslərini və fikirlərini bir-birinə çatdırırlar. Nitqin qavranılması isə eşitmə ilə birbaşa bağlıdır. Uşaq dünyaya gəldiyi ilk günlərdən etibarən səslərə reaksiya verir və zamanla eşitdiklərini təqlid edərək danışmağı öyrənir. Əgər eşitmə qabiliyyətində problem yaranarsa, bu, nitqin inkişafına da təsir göstərir. Deməli, eşitmə yalnız fərdi inkişaf deyil, sosiallaşma prosesinin də ayrılmaz hissəsidir”.

Eşitmənin həm təhsil prosesində, həm də mədəniyyət və incəsənət sahəsində mühüm rol oynadığını, həmçinin təhlükəsizlik baxımından vacibliyini söyləyən A.Sücəddinova, eşitmə qabiliyyətində məhdudiyyət olan şəxslərin cəmiyyətdə ayrıca diqqət tələb etdiyini vurğulayıb: “Eşitmə məhdudiyyətli insanlar işarə dili vasitəsilə ünsiyyət qurur, xüsusi texnologiyalardan istifadə edir və bir çox sahədə uğur qazanırlar. Onların cəmiyyətə inteqrasiyası sosial ədalətin və bərabərliyin göstəricisidir. Dövlət və ictimai təşkilatların bu sahədə gördüyü işlər – tərcümə xidmətləri, subtitrlər, eşitmə cihazlarının təminatı – sosial həmrəyliyin nümunəsidir”.

Onun sözlərinə görə, texnologiyanın inkişafı - eşitmə aparatları, koxlear implantlar, səs gücləndiriciləri və mobil tətbiqlər insanların həyat keyfiyyətini artırır. Bu yeniliklər sayəsində eşitmə məhdudiyyətli şəxslər daha aktiv sosial həyata qoşula bilirlər. Texnologiya yalnız tibbi vasitə deyil, həm də sosial inteqrasiya alətidir. Bununla yanaşı, səsli informasiya sistemlərinin geniş yayılması – podkastlar, audiokitablar, onlayn dərslər – eşitmənin cəmiyyətdəki əhəmiyyətini daha da artırıb.

Məruzədə eşitmə məhdudiyyətli şəxslərin hüquqlarının qorunması və onların cəmiyyətə inteqrasiyası məsələlərinə də toxunulub: “Müasir texnologiyalar və inklüziv yanaşmalar sayəsində hər bir fərdin sosial həyatda fəal iştirak etməsi mümkündür. Buna görə də eşitmənin qorunması, bu sahədə maarifləndirmənin aparılması və sosial dəstək mexanizmlərinin gücləndirilməsi cəmiyyətin davamlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır”.

Bundan sonra məruzəyə dair fikir mübadiləsi aparılıb, kafedranın əməkdaşları xəstəliyin ayrı-ayrı simptomları, diaqnostikası və müalicə formalarından söz açıblar.

Kafedranın assisenti Afaq Şadlinskaya insanın eşitmə qabiliyyətini ölçmək üçün obyektiv müayinə üsullarından biri olan audiometriya barədə məlumat verib. Qeyd edib ki, ilk dəfə audiologiya bir elm kimi 1920-ci ildə Schwatrts, 1926 ildə Fletsher tərəfindən öyrənilib, 1951-ci ildə ABŞ-da modern audiometriya cihazı ilə eşitmə müayinəsi aparılıb. Tədris Cərrahiyyə Klinikasında isə 2015-ci ildən audiometriya kabineti qurulub və eşitmə müayinəsi aparılmağa başlanılıb. Bu müayinə üsulu eşitmədə zəifləmə hiss edildəndə, qulaqda küy (tinnitus) olduqda, uşaqlarda danışıq gecikməsi zamanı və səs-küylü mühitdə işləyənlər üçün məsləhət görülür.

**Arif MƏMMƏDLİ**

# Müasir immunodiaqnostika: fərdiləşdirilmiş klinik qərarlara açılan pəncərə

## Afaq Xəlilova: Müalicənin effektivliyi artır, lazımsız dərman istifadəsi və yan təsirlər minimuma enir

**Son illər immunodiaqnostika sahəsində tətbiq olunan müasir yanaşmalar diaqnostikanın dəqiqliyini əhəmiyyətli dərəcədə artırıb. Qabaqcıl laborator texnologiyalar, molekulyar-genetik üsullar və süni intellektə əsaslanan analitik sistemlər immun sistemin funksional vəziyyətinin daha dərindən qiymətləndirilməsinə imkan yaradaraq klinik qərarların fərdiləşdirilməsini təmin edir.**

Bu sahədə əldə olunan yeniliklər haqqında əməkdar elm xadimi, əməkdar həkim, tibb elmləri doktoru, Allergologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyevanın rəhbərliyi altında fəaliyyət göstərən kafedranın assistenti, Elmi Araşdırmalar Mərkəzinin İmmunologiya şöbəsinin müdiri Afaq Xəlilova danışıb.

Mütəxəssis bildirib ki, son illərdə immunologiya sahəsində əldə olunan elmi və texnoloji nailiyyətlər immunoloji diaqnostikaya yanaşmanı əsaslı şəkildə dəyişərək, immun sisteminin funksional vəziyyətinin, tənzimlənməsinin və dinamikasının kompleks qiymətləndirilməsinə imkan yaradıb. Bu yanaşma immun xəstəliklərin vaxtında və dəqiq aşkarlanmasında laborator əsaslı obyektiv üsulların rolunu əhəmiyyətli dərəcədə artırıb. Müasir klinik immunologiyada diaqnostika immun balansın pozulması nəticəsində formalaşan autoimmun proseslərin, immunçatışmazlıq hallarının, allergik xəstəliklərin və immun nəzarət mexanizmlərinin zəifləməsi nəticəsində inkişaf edən onkoloji proseslərin erkən mərhələdə müəyyən edilməsində həlledici əhəmiyyət daşıyır. Bu səbəbdən immun sistemin qiymətləndirilməsi yalnız klinik əlamətlərlə məhdudlaşmır, eyni zamanda laborator əsaslı, yüksək dəqiqliyə malik immunoloji test üsullarına əsaslanaraq müasir tibbin ayrılmaz tərkib hissəsinə çevrilir.

A.Xəlilova qeyd edib ki, immunoloji test üsulları anticisimlərin, antigenlərin və immun hüceyrələrin mövcudluğunu və miqdarını müəyyən etməyə imkan verən əsas analitik metodlardır və autoimmun, allergik, infeksion xəstəliklərin, eləcə də immunçatışmazlıq hallarının erkən diaqnostikasında, immun statusun qiymətləndirilməsində geniş tətbiq olunur. ELISA, Western blot, immunoflüoressens və radioimmun analizlər immun cavabın birbaşa ölçülməsini təmin edərək xəstəliklərin düzgün diferensiasiyası və müalicə strategiyalarının formalaşdırılması üçün etibarlı məlumat bazası yaradır. Erkən aşkarlanma, xəstəliyin gedişinin monitorinqi, pasiyentin həyat keyfiyyətinin yaxşılaşdırılması və stabil klinik vəziyyətin qorunması immunoloji pozğunluqların idarə olunmasının əsas məqsədlərini təşkil edir. Bu proses risk qruplarının skrininqi, biomarker əsaslı yanaşmalar və fərdiləşdirilmiş müalicə strategiyaları ilə həyata keçirilir. Müasir immunodiaqnostika isə təkcə analitik testlərlə məhdudlaşmayaraq immun sistemin hüceyrə, toxuma, molekulyar və genetik səviyyələrdə qiymətləndirilməsini təmin edən qabaqcıl texnoloji platformalara əsaslanır ki, bu da immun pozğunluqların daha dəqiq diferensiasiyasına, xəstəlik



mexanizmlərinin dərin anlaşılmasına və effektiv klinik qərarların qəbuluna imkan yaradır.

O, həmçinin vurğulayıb ki, süni intellekt texnologiyalarının tibbi diaqnostikaya inteqrasiyası immunodiaqnostikada keyfiyyətcə yeni mərhələnin əsasını qoyaraq böyük həcmdə laborator və klinik məlumatların birgə təhlili vasitəsilə immun sistemin funksional vəziyyətinin, pozulma mərhələlərinin və zamanla dəyişikliklərinin daha dəqiq qiymətləndirilməsinə imkan verir. Müasir immunoloji diaqnostikada seroloji testlər və axın sitometriyası əsas texnoloji platformalar kimi geniş tətbiq olunur. Seroloji üsullar qanda antigen və anticisimlərin aşkarlanmasına əsaslanaraq autoimmun və infeksion xəstəliklərin erkən diaqnostikasında mühüm rol oynayır, axın sitometriyası isə immun hüceyrə populyasiyalarının kəmiyyət və keyfiyyət göstəricilərini, səthi markerlərini və aktivasiya vəziyyətini eyni vaxtda təhlil edərək immun statusun obyektiv monitorinqini təmin edir. Bu yanaşmalar immun cavabın həm humoral, həm də hüceyrə komponentlərinin kompleks qiymətləndirilməsinə və daha dəqiq klinik qərarların qəbuluna şərait yaradır.

İmmun funksiyanın qiymətləndirilməsində limfosit proliferasiya analizləri, toxuma səviyyəsində immunohistokimya və genetik testlər əsas texnologiyalar kimi geniş tətbiq olunur. Limfosit proliferasiya analizləri spesifik antigenlərə və ya mitogenlərə cavab olaraq limfositlərin çoxalma qabiliyyətini ölçərək immunçatışmazlıqların və bəzi autoimmun xəstəliklərin funksional qiymətləndirilməsinə imkan verir. İmmunohistokimya etiketlənmiş anticisimlər vasitəsilə toxuma və hüceyrə kəsiklərində spesifik antigenlərin lokalizasiyasını göstərir, onkoloji və autoimmun xəstəliklərin patogenezini anlamağa kömək edir. Genetik testlər və yeni nəsil sekvensləmə (NGS) texnologiyaları isə immun sistemin molekulyar, genetik və klonal müxtəlifliyini dərin şəkildə təhlil etməyə, irsi immun xəstəlikləri erkən aşkarlamağa və nadir immun hüceyrə klonlarını müəyyən etməyə imkan verir. Bununla da precision immunologiyanın formalaşmasına və fərdiləşdirilmiş diaqnostik yanaşmaların hazırlanmasına şərait yaradır.

Mütəxəssis əlavə edib ki, son illərdə CRISPR/Cas sistemlərinə əsaslanan diaqnostik texnologiyalar və kütlə sitometriyası (CyTOF) immunodiaqnostikada yeni imkanlar yaradaraq, tək hüceyrə səviyyəsində geniş parametrlərin eyni vaxtda təhlilinə və kompleks immun profillərin qurulmasına imkan verir. SHERLOCK və DETECTR platformaları patogenlərə və xəstəliklə əlaqəli nuklein turşularına qarşı sürətli və dəqiq aşkarlama təmin edir, CyTOF isə dağınıq skleroz, HIV/QİÇS, onkoloji xəstəliklər və transplantasiya pasiyentlərində immun hüceyrə funksiyalarının monitorinqində geniş tətbiq olunur. Bu texnologiyalar fərdiləşdirilmiş tibbin inkişafına təkan verərək “hamı üçün eyni müalicə” prinsipindən uzaqlaşmağa, hər bir pasiyentin immun-genetik xüsusiyyətlərinə uyğun terapiyanın seçilməsinə və müalicənin effektivliyinin artırılmasına şərait yaradır, eyni zamanda lazımsız dərman istifadəsini və yan təsirləri minimuma endirir.

Müasir immunodiaqnostika xəstəliyin gedişini real vaxt rejimində izləməyə və alovlanma ilə remissiya mərhələlərini monitorinq etməyə imkan verərək müalicə strategiyalarının vaxtında tənzimlənməsini təmin edir. Axın sitometriyası, sitokin profilləri, PCR, immunohistokimya və molekulyar-genetik yanaşmalar immun sistemdə baş verən dəyişiklikləri dəqiq qiymətləndirir, yalançı nəticələri azaldır və immunoloji xəstəliklərin düzgün diferensiasiyasına şərait yaradır. Süni intellekt isə laborator və klinik məlumatları birləşdirərək analizləri daha dəqiq edir, həkimi əvəz etmədən klinik qərarverməni dəstəkləyir. Beləliklə, immun diaqnostika yalnız xəstəliyi təsdiqləyən alət olmaqdan çıxaraq müalicənin ayrılmaz və dinamik hissəsinə çevrilir, bioloji preparatlar, CAR-T hüceyrə terapiyası və transplantasiya sonrası immun statusun davamlı monitorinqini təmin edərək müalicənin təhlükəsizliyi və effektivliyini artırır.

Sonda vurğulanıb ki, müasir immunodiaqnostika immun sisteminə açılan bir pəncərə rolunu oynayır və bu pəncərə nə qədər aydın olarsa, qəbul edilən klinik qərarlar da bir o qədər dəqiq və effektiv olur.

**Aytac ƏSƏDOVA**

# Kursantlar hərbi hissə və hospitallarda praktik təcrübə keçir

## Tibbi profilaktika kafedrası təkcə akademik biliklər aşılamır, həm də gənclərdə vətənpərvərlik ruhunu formalaşdırır

**Universitetimizdə yaz semestrinin - ikinci yarımilin dərsləri bir müddətdir ki, başlayıb. Tədris prosesinin təşkili ilə yaxından tanış olmaq üçün Hərbi tibb fakültəsinin Tibbi profilaktika kafedrasında olduq. Kafedranın rəisi, tibb xidməti polkovniki Şahin Süleymanov bizə kafedra ilə bağlı ümumi məlumat verdi. Bildirdi ki, kafedrada kursantların diplomaqədərki dövrdə tibbi profilaktika üzrə həkim və feldşer hazırlığı, diplomdansonrakı mərhələdə isə təkmilləşdirilməsi həyata keçirilir.**



Kafedrada ümumilikdə 5 fənnin tədris olunduğunu qeyd edən rəis nəzərə çatdırdı ki, əsas istiqamətlərə hərbi gigiyena, radioloji və tibbi mühafizə, toksikologiya və mülki müdafiə üzrə tibbi təminat daxildir: "Bu fənlər gələcək hərbi tibb mütəxəssislərinin həm sülh, həm də fövqəladə hallar şəraitində peşəkar fəaliyyətə hazırlanmasında mühüm rol oynayır. Qeyd edim ki, "Hərbi həkim" ixtisası hazırlığı kurslarının kursantları üçün hərbi gigiyena, hərbi epidemiologiya, tibbi parazitologiya, hərbi toksikologiya, radiologiya və tibbi mühafizə fənləri, "Hərbi feldşer" hazırlığı kursunun kursantları üçün isə hərbi gigiyena, hərbi epidemiologiya və tibbi parazitologiya fənləri nəzəri və təcrübi məşğələlər şəklində tədris olunur".

Ş.Süleymanov mülki müdafiə fənninin yalnız Hərbi tibb fakültəsinin kursantlarına deyil, digər fakültələrin tələbələrinə də tədris olunduğunu bildirdi: "Mülki müdafiə fənni kafedramızın müəllimləri tərəfindən eyni zamanda I-II Müalicə profilaktika, İctimai səhiyyə, Əczaçılıq və Stomatologiya fakültələrinin tələbələri üçün Azərbaycan, rus və ingilis dillərində tədris edilir. Kafedrada tədris olunan bütün fənlər üzrə dərslik və dərs vəsaitləri hazırlanıb, onların müasir tələblərə uyğun yenilənməsi daim diqqət mərkəzində saxlanılır. Kafedranın tədris-metodiki bazası müasir elektron avadanlıqlarla tam təchiz olunub. Bütün siniflərdə, mühazirə zallarında kompüter və barko cihazları quraşdırılıb, dərs otaqları stendlər və tədris ləvazimatları ilə təmin edilib. "Hərbi həkim" ixtisası və "Hərbi feldşer" hazırlığı kurslarının proqramları, həmçinin fənlərin sillabusları müasir tələblərə uyğun yenilənib".

Polkovnik əlavə etdi ki, bu fənn 2020-ci ildən etibarən ayrıca proqram və kod əsasında kafedraya həvalə olunub: "Praktik dərslər zamanı konkret mövzular üzrə simulyasiya üsullarından istifadə olunur. Fakültədə fəaliyyət göstərən simulyasiya kabinetində fövqəladə hallar zamanı davranış qaydaları, ilkin tibbi yardım prinsipləri və mühafizə tədbirləri əyani şəkildə nümayiş etdirilir".

Ş.Süleymanovun sözlərinə görə, semestrin sonunda tələbələr fənn üzrə sərbəst iş hazırlayaraq təqdimat edir və yekunda imtahan verirlər: "Qiymətləndirmə 100 ballıq sistemlə aparılır: 90 bal imtahan, 10 bal isə sərbəst iş üçün nəzərdə tutulub. Bu fənn üzrə imtahan mütləqdir və tələbə kredit əldə etmək üçün tələb olunan balı toplamalıdır. Proqram çərçivəsində kütləvi qırğın silahlarının xarakteristikası, mülki müdafiənin vəzifələri, fövqəladə hallar zamanı tibbi taktika və tibbi yardımın təşkili kimi mövzular tədris olunur".

Rəis onu da vurğuladı ki, konfrans və seminarlarda çıxışlar, elmi məqalələrin və prezentasiyaların hazırlanması kafedrada xüsusi yer tutur. Kafedranın müəllim heyəti 150-dən çox elmi məqalə yazaraq müxtəlif jurnallarda və toplularda dərc etdirib: "Kafedranın müəllim heyətinə Müdafiə Nazirliyində xidmət etmiş zabitlər daxildir. Onlar 1-ci və 2-ci Qarabağ müharibələrində praktik təcrübə qazanmış, səhra şəraitində tibbi təminatın xüsusiyyətlərini bilən təcrübəli mütəxəssislərdir. Tələbə və kursantlar arasında tərbiyəvi işlərin təşkilinə də xüsusi diqqət yetirilir. Kafedra yalnız akademik bilikləri aşılamır, həm də gənclərdə vətənpərvərlik və peşəkarlıq ruhunu formalaşdırmaq istiqamətində fəaliyyət göstərir".

Polkovnik, kursantların tədris müddətində keçdikləri təcrübədən də söhbət açdı. Bildirdi ki, kursantların qoşun təcrübəsi Müdafiə Nazirliyinin xüsusi əmri əsasında iyul ayında təşkil olunur. Onun sözlərinə görə, təcrübələr ölkənin müxtəlif bölgələrində yerləşən hərbi hissələrdə, eləcə də Kəlbəcər, Laçın, Şəmkir, Hadrut və Ağdam istiqamətlərində fəaliyyət göstərən hospitallar və tibb məntəqələrində keçirilir: "Təcrübəyə daha çox yuxarı kursda təhsil alanlar cəlb olunur. Aşağı kurs tələbələri isə qoşun təcrübəsi çərçivəsində hərbi tibb məntəqələrində həkim köməkçisi funksiyalarını yerinə yetirir, xəstə və yaralılara ilkin tibbi yardımın göstərilməsi, tibbi xidmətin təşkili və sənədləşmə qaydalarını praktik şəkildə mənimsəyirlər".

Kafedrada olduğumuz zaman müəllimlər auditoriyalarda tələbə və kursantlara dərs keçirdilər. Vaxtilə adıçəkilən kafedranın rəisi olmuş, hazırda müəllim kimi fəaliyyət göstərən tibb xidməti polkovniki Fərhad Mehbəliyevin fikirlərini öyrəndik. O, hərbi toksikologiya, hərbi epidemiologiya və mülki müdafiə fənlərini tədris edir: "Dərslər həm Azərbaycan, həm rus, həm də ingilis dillərində aparılır. Ümumilikdə üç əsas istiqamət üzrə mühazirə və praktik məşğələlər keçirəm".

Onun dediyinə görə, son illərdə tədris proqramlarında mühüm yeniliklər edilib və fənlər beynəlxalq standartlara uyğunlaşdırılıb: "Xüsusilə hərbi toksikologiya üzrə NATO standartlarından geniş istifadə edirik. Epidemiologiya istiqamətində isə əsasən Rusiya məktəbinin dərslik və metodik vəsaitlərinə istinad olunur".

F.Mehbəliyev onu da vurğuladı ki, ilk dəfə olaraq mülki müdafiə üzrə ingilis dilində dərslik hazırlanıb. Azərbaycan dilində olan dərsliyin yenilənmiş nəşri isə artıq Elmi Şuraya təqdim edilib və müzakirə mərhələsindədir. Onun sözlərinə görə, yeni dərsliklər hazırlanarkən Müdafiə Nazirliyinin son əmrləri, normativ sənədlər və rəsmi qərarlar da nəzərə alınır, bütün dəyişikliklər tədris materiallarına daxil edilir: "Tədrisdə yalnız klassik mühazirə üsulu ilə kifayətlənmirik. İnternet resurslarından, müasir təqdimat vasitələrindən, əyani vəsaitlərdən və praktik məşğələlərdən istifadə edirik. Kursantlar sanitariya-epidemioloji mərkəzlərə aparılır, laboratoriyaların fəaliyyəti ilə yerində tanış olurlar. Tətbiq etdiyimiz yeniliklərin əsas məqsədi gələcək hərbi tibb mütəxəssislərinin müasir çağırışlara uyğun, peşəkar və praktik biliklərə malik kadrlar kimi hazırlanmasıdır".

Digər müəllim, istefada olan tibb xidməti polkovnik-leytenantı Elçin Dadaşovdan tədris etdiyi fənn və kafedranın fəaliyyəti barədə məlumat verməsini xahiş etdik. Bildirdi ki, hazırda hərbi gigiyena fənnini tədris edir: "Bu fənn gələcək hərbi həkimlərin və hərbi feldşerlərin hazırlanmasında mühüm yer tutur. Əvvəlki illərdə bəzi digər fakültələrin tələbələri üçün də tədris olunurdu, lakin hazırda proqram üzrə yalnız hərbi tibb fakültəsinin kursantlarına keçirilir. Semestrin sonunda kursantlar imtahan verəcək və bununla da fənn üzrə tədris prosesi yekunlaşacaq. Hərbi gigiyena fənni Silahlı Qüvvələrdə xidmət şəraitində sanitariya-gigiyena normalarının qorunması, şəxsi heyətin sağlamlığının mühafizəsi və profilaktik tədbirlərin təşkili baxımından xüsusi əhəmiyyət daşıyır".



E.Dadaşov əlavə etdi ki, fakültədə hərbi tibb mütəxəssislərinin hazırlanması üçün lazımi şərait mövcuddur və kursantlara tələb olunan bilik və bacarıqlar sistemli şəkildə tədris edilir.

Müəllimlərlə həmsöhbət olduqdan sonra tələbələri də dinləmək istədik. Əczaçılıq fakültəsinin II kurs tələbələri Əmirxan Quluzadə, İnarə Əzizova və Polad Hacızadə təhsil şəraiti və dərslərin təşkilindən razı olduqlarını bildirdilər. Qeyd etdilər ki, tədris prosesi ardıcıl şəkildə aparılır, müəllim heyətinin yanaşması isə onları qane edir. Tələbələrin sözlərinə görə, həm nəzəri, həm də praktik məşğələlər yüksək səviyyədə təşkil olunur.

Kursant Fuad Həsənli isə bu ixtisası öz istəyi ilə seçdiyini və qərarından məmnun olduğunu diqqətə çatdırdı. Onun sözlərinə görə, fakültədə təhsil üçün yaradılan şərait qənaətbəxşdir və indiyədək hər hansı problemlə üzləşməyib.

Beyləqan rayonundan olan kursantın ixtisas seçimini ailəsi də dəstəkləyib: "Bu yolu şüurlu şəkildə seçmişəm. Gələcəkdə hərbi həkim kimi xidmət etmək istəyirəm. Hərbi nizam-intizam və tədris mühiti məni qane edir. Silahlı Qüvvələrdə layiqli xidmət göstərmək niyyətindəyəm".

Reportajımızı bitirərkən bir daha əmin olduq ki, Hərbi tibb fakültəsində, eləcə də Tibbi profilaktika kafedrasında yaradılmış müasir tədris infrastrukturu və zəngin praktik təcrübəyə malik müəllim heyəti gələcək hərbi tibb mütəxəssislərinin peşəkar şəkildə hazırlanmasını təmin edir.

**Qabil ABDULLAYEV**







## Ginekoloji Endokrinologiya Cəmiyyətinin yubiley konqresində təmsil olunmuşuq



**II Mamalıq-ginekologiya kafedrasının əməkdaşları Roma şəhərində İnternational Society of Gynecological Endocrinology (ISGE) təşkilatının 40 illik yubileyinə həsr olunmuş konqresdə iştirak ediblər.**

Professor Şeymən Həsənli "Erkən hamiləlikdə fibrinoid nekrozun cərrahi müalicəsi: iki klinik hal haqqında" mövzusunda poster məruzə təqdim edib. Professor Nigar Kamilovanın "Postmenopozal dövrdə Azərbaycan qadınlarında menopauzanın genitoüriner simptomlarının endokrin determinantları: əhalinin xüsusiyyətləri nəzərə alınmaqla aparılmış gecikmiş analiz", assistent Nərgiz Şəmsəddinskayanın "Sonsuzluğun gizli nəticələri: qadınlarda FSFI və Zung şkalası ilə qiymətləndirilən cinsi disfunksiya və narahatlıq", baş laborant Vüsalə Tağıyevanın isə "PV ilə əlaqəli patologiyası olan qadınlarda cinsi davranış və yüksək riskli HPV genotipləri arasında əlaqə" və "Yüksək riskli HPV ilə əlaqəli servikal intraepitelial lezyonları (hr-HPV) olan xəstələrin müalicəsinə fərqli yanaşma" mövzularında məruzələri dinlənilib.

Qeyd edək ki, bu əlamətdar tədbir dünyanın müxtəlif ölkələrindən həkim və alimləri bir araya gətirən mühüm elmi platformadır. Konqres çərçivəsində ən müasir elmi təqdimatlar səsləndirilib, maraqlı və dinamik müzakirələr aparılıb, həmçinin iştirakçılar üçün peşəkar inkişaf baxımından dəyərli imkanlar yaradılıb.

Tədbir ginekoloji endokrinologiya sahəsində son yeniliklərin öyrənilməsi və elmi təcrübə mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edib.

# Piylənmə: kardiometabolik nəticələri, epidemioloji tendensiyalar



**İlahə İslamzadə**
*Qidalanma və tibbi ekologiya kafedrasının baş müəllimi*

**Piylənmə müasir dövrün aktual tibbi-sosial problemlərindən biri kimi qiymətləndirilir. Son illər beynəlxalq elmi ədəbiyyatda dərc olunan genişmiqyaslı materiallar piylənmənin qlobal səviyyədə sabit artım dinamikası nümayiş etdirdiyini göstərir.**

Tədqiqatlarda uşaqlar arasında izafi çəki və piylənmənin son iki onillikdə ardıcıl yüksələn xətlə getdiyi və bir çox regionlarda yayılmanın yüksək səviyyədə qaldığı vurğulanır. Davamlı artıq çəki dinamikasının yetkinlik dövründə hipertoniya riskini artırdığı sistematik icmal və meta-analizlərdə təsdiqlənir. Bu dəlillər profilaktik yanaşmaların erkən yaşlardan bədən çəkisinin idarə olunmasına yönəldilməsinin və piylənmənin ağırlaşmalarının qarşısının alınmasında mərhələli nəzarətin vacibliyini elmi baxımdan əsaslandırır.

Artıq bədən çəkisi və piylənməni yalnız ayrıca risk faktoru kimi deyil, metabolik pozğunluqların kompleksini formalaşdıran əsas patogen baza kimi qiymətləndirmək olar.

Piylənmənin klinik əhəmiyyəti onun bir sıra xəstəliklər üçün aparıcı endogen zəmin yaratması ilə daha aydın görünür. Xüsusilə, arterial hipertenziyanın formalaşmasında piylənmə əsas patogen amillərdən biri kimi təqdim olunur və bu əlaqə klinik-epidemioloji səviyyədə ardıcıl şəkildə təsdiqlənir. Piylənmə fonunda hemodinamik yüklənmənin artması, damar tonusunun tənzimlənməsinin pozulması və metabolik dəyişikliklərin dərinləşməsi arterial təzyiqin yüksəlməsi üçün əlverişli mühit yaradır. Bu baxımdan hipertoniya bir çox hallarda piylənmənin uzunmüddətli nəticəsi kimi çıxış edir və onun idarə olunması hipertoniya riskinin azaldılmasında əsas istiqamətlərdən biri hesab edilir.

Piylənmənin epidemioloji yükü uşaq və yeniyetmələrdə artım tempi ilə diqqət çəkir. Müasir məlumatlara əsasən, piylənmənin uşaqlar arasında yayılması 1970-ci illərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Bu artım piylənmənin erkən yaşlardan başlayaraq sağlamlıq üzrə dinamikanı dəyişdirdiyini və həyat boyu davam edə bilən metabolik və kardiovaskulyar risk profilini formalaşdırdığını göstərir. Uşaq yaşlarında piylənmənin yaranması sonrakı dövrlərdə həm bədən çəkisinin davamlı artımı, həm də bu artımın doğurduğu klinik nəticələrin erkən manifestasiyası ilə xarakterizə olunur.

Məktəbyaşlı uşaqlar və yeniyetmələr arasında piylənmənin artımını şərtləndirən mühüm mexanizmlər müasir həyatın intensivləşməsi ilə əlaqələndirilir. Tədris yükünün artması, informasiya gərginliyi, kompüterləşmə və oturaq həyat tərzinin genişlənməsi fiziki aktivliyin azalmasına gətirib çıxarır. Eyni zamanda qeyri-rasional qidalanma vərdişlərinin formalaşması enerji balansının pozulmasını dərinləşdirir və izafi bədən çəkisinin, daha sonra isə piylənmənin inkişafını sürətləndirir. Bu kontekstdə fiziki aktivliyin azalması piylənmənin inkişafında aparıcı davranış determinantı kimi çıxış edir və piylənmənin formalaşması ilə nəticələnən səbəb zəncirinin əsas komponentlərindən biri kimi dəyərləndirilir.

Beləliklə, piylənmə həm epidemioloji miqyas, həm də patogen təsir mexanizmləri baxımından digər xəstəliklərin yaranması üçün baza yaradan aparıcı determinant kimi çıxış edir. Hipertoniya və digər metabolik pozğunluqlar bir çox hallarda piylənmənin davamı və nəticəsi kimi formalaşır. Bu səbəbdən profilaktika və nəzarət strategiyalarında əsas vurğu piylənmənin qarşısının alınmasına, erkən yaşlardan sağlam qidalanma vərdişlərinin formalaşdırılmasına və fiziki aktivliyin artırılmasına yönəldilməlidir.

Bu yanaşma yalnız piylənmənin deyil, onun nəticəsi kimi inkişaf edən kardiometabolik və digər patoloji vəziyyətlərin yükünün də azaldılmasına xidmət edəcək.

# Əməkdaşımız nüfuzlu konqresdə çıxış edib




Avropa və dünya onkologiyasının lokomotivlərindən sayılan Avropa Ginekoloji Onkologiya Cəmiyyətinin (ESGO) rəhbərliyi və təşkilatçılığı ilə Danimarkanın Kopenhagen şəhərində ginekoloji orqanların bədxassəli şişlərinə həsr edilmiş 27-ci Avropa Ginekoloji Onkologiya Konqresi (ESGO's 27th European Gynaecological Oncology Congress) keçirilib.

Avropanın ən nüfuzlu onkoginekoloji cəmiyyəti sayılan ESGO-nun ildə bir dəfə təşkil etdiyi bu mötəbər tədbirdə dünyanın müxtəlif ölkələrindən 3500-dən çox iştirakçı bir araya gəlib. 100-dən çox ölkədən məruzəçilərin seçildiyi və dünyanın bütün ölkələrindən 1000-dən çox tədqiqatçının qatıldığı bu konqresdə çıxış edəcək şəxslərə elmi məruzə üçün xüsusi dəvət məktubu göndərilir.

Qeyd edək ki, bu nüfuzlu dünya konqresində ölkəmizi Azərbaycan Tibb Universitetinin əməkdaşı, uzman doktor Əkbər İbrahimov məruzəçi qismində təmsil edib.

# Tələbə və əməkdaşlarımız kamandan oxatma üzrə yarışıb

**Universitetimizdə “5 Mart - Bədən tərbiyəsi və idman günü”nə həsr olunmuş kamandan oxatma üzrə yarış keçirilib. Turnir “Təbib” Tədris-İdman Mərkəzi və Bakı şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı, həmçinin Azərbaycan Kamandan Oxatma Federasiyasının dəstəyi ilə təşkil olunub.**

Universitetin tələbə və əməkdaşları arasında keçirilən idman tədbirində ümumilikdə 67 nəfər iştirak edib ki, onlardan 34-ü kişi, 33-ü isə qadın olub. Yarışın əsas məqsədi kollektivin idmana marağını artırmaq, iştirakçılar arasında sağlam rəqabət mühiti yaratmaq və kamandan oxatma üzrə bacarıqları nümayiş etdirməkdir.

Olduqca maraqlı və gərgin mübarizə şəraitində keçən yarışda iştirakçılar dəqiqlik, diqqət və iradə tələb edən bu idman növündə öz məharətlərini göstərərək qalibiyyət uğrunda mübarizə aparıblar. Yekun nəticələrə əsasən, kişilər arasında Əliyev Səfər 48 xalla I yerə, Abdullayev Toğrul 46 xalla II yerə, Eisa Balazadeh isə 45 xalla III yerə layiq görülüb. Qadınların mübarizəsində isə Məmmədova Aysel 45 xalla I, Bagherian Paria 44 xalla II, Cavadzadə Diana 43 xalla III yerin qalibi olublar.




Qaliblər Bakı Şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sirac Axundov və “Təbib” mərkəzinin müdiri Qələndər Aslanov tərəfindən medal və diplomlarla təltif olunublar. Mükafatçıları təbrik edən rəsmilər onlara növbəti yarışlarda uğurlar arzulayıblar. Bağlanış mərasimində, həmçinin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə yarışda iştirak edən qadınlara gül dəstələri təqdim olunub.

Tədbir xatirə şəkillərinin çəkdirilməsi ilə xoş əhval-ruhiyyədə başa çatıb.

# Badminton yarışında uğur qazanmışıq

Gənclər və İdman Nazirliyi və Azərbaycan Badminton Federasiyasının təşkilatçılığı ilə “İdman həftəsi” çərçivəsində tələbələr arasında badminton yarışı təşkil olunub. “Volan” Badminton Klubunda təşkil olunan yarışda müxtəlif ali təhsil müəssisələrini təmsil edən tələbələr iştirak ediblər. Ümumilikdə yarışda 20 oğlan və 18 qız tələbə mübarizə aparıb.




Yarışın əsas məqsədi tələbələr arasında sağlam həyat tərzinin təbliği, gənclərin idmana marağının artırılması, həmçinin badminton idman növünün inkişafına dəstək göstərilməsi olub.

Azərbaycan Tibb Universitetini yarışda “Təbib” Tədris-İdman Mərkəzinin məşqçi-müəllimi Nərgiz Mehdiyevanın rəhbərliyi ilə 4 tələbə təmsil edib. Komandamız yarışda yüksək nəticələr qazanıb: qadınlar arasında Ülkər Məmmədova I yerin, kişilər arasında Marven Richard II, Emin Cəfərli isə III yerin sahibi olublar.

Qeyd edək ki, Azərbaycan Tibb Universiteti tələbələrinin bu uğuru universitetdə idmanın inkişafına göstərilən diqqətin və tələbələrin idmana olan marağının bariz göstəricisidir. Yarışın sonunda qaliblər və mükafatçılar Gənclər və İdman Nazirliyi tərəfindən diplom və medallarla təltif olunublar.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- Normal fiziologiya kafedrası - 1 yer
- Fizioterapiya və tibbi reabilitasiya kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Qulaq, burun, boğaz kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- Tibbi və bioloji fizika kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer
- Təcili tibb kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- Təcili tibb kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 1 yer
- Ağciyər xəstəlikləri kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- Qulaq, burun, boğaz kafedrası - 1 yer
- I Mamalıq – ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- Radiologiya kafedrası - 1 yer
- Tibbi biologiya və genetika kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- Normal Fiziologiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer

**Kafedranın müəllimi:**
- Hərbi cərrahiyyə kafedrası - 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər və kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, iştirak etdiyi ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş il üzrə həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Sabir Sadıqova qardaşının həyat yoldaşı **Məlahət Sadıqovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Kənan Nəbiyevə anası **Firuzə Nəbiyevanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Azad Nəcəfova oğlu **Rövşən Nəcəfovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0005
Sayı 800